LAYİHƏNİN İSTİQAMƏTİ: "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi"

KİVDF

# Azərbaycan mədən sənayesində şəffaflıq prinsipinə ciddiliklə əməl edir

**Müasir dövrdə neft istehsal edən dövlətlərin heç də hamısı neft pullarının ədalətli bölüşdürülməsi, şəffaflığın təmin edilməsi, qazanılan gəlirlərdən hər bir vətəndaşın rifahı üçün istifadə olunması kimi məsələlərdə fəallıq göstərmir. Bu mənada, hasilat sənayelərində şəffaflıq təşəbbüslərinə münasibət bu gün həm də ayrı-ayrı dövlətlərin beynəlxalq imicini formalaşdırır.**



Təsadüfi deyildir ki, Azərbaycanın əvəzsiz milli sərvəti olan neftdən qazanılan gəlirlərin düzgün idarə edilməsi, hasilatda şəffaflıq prinsipinin qorunması hələ 90-cı illərin ortalarından ümummilli lider Heydər Əliyevin daim xüsusi diqqət yetirdiyi məsələlərdən olmuşdur. Ulu öndər dəfələrlə bəyan etmişdir ki, neft təkcə indiki deyil, həm də gələcək nəsillərə məxsusdur. Bu zəngin təbii sərvətdən son dərəcə səmərəli şəkildə, qənaətlə, hər bir ölkə vətəndaşının mənafeyi naminə istifadə olunmalı, israfçılığa yol verilməməlidir.

Ümummilli liderin uğurla gerçəkləşdirdiyi yeni neft strategiyası milli iqtisadiyyatın dirçəldilməsi üçün zəruri maliyyə əsaslarının formalaşdırılması, kənd təsərrüfatının və emal sənayesinin, o cümlədən qeyri-neft sektorunun, informasiya və kommunikasiya texnologiyalarının inkişafı baxımından həlledici əhəmiyyət kəsb etmişdir. Böyük strateq Heydər Əliyevin «Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında» 29 dekabr 1999-cu il tarixli fərmanı da məhz bu ali məqsədlərin həyata keçirilməsinə xidmət etmişdir. Fond neft sazişlərinin həyata keçirilməsi ilə bağlı əldə edilən gəlirlərin toplanması və səmərəli idarə edilməsi mexanizmidir. Belə bir qurumun yaradılması dövlətin neft-qaz ehtiyatlarının işlənməsindən əldə edilən gəlirlərin istifadəsində israfçılığa, əyintilərə səbəb ola biləcək halların qarşısının alınması, eləcə də şəffaflığın tam təmin edilməsi istəyi ilə əlaqədardır. Fondun fəaliyyətinin başlıca məramını neft və qaz hasilatından əldə olunan maliyyə vəsaitlərinin indiki və gələcək nəsillərin mənafeyi naminə səmərəli idarə edilməsi təşkil edir.

Fondun fəaliyyətinin prioritet istiqamətləri ölkə iqtisadiyyatının inkişafına təkan vermək, daha dəqiqi, strateji əhəmiyyət kəsb edən enerji layihələrini, eləcə də mühüm sosial layihələri maliyyələşdirmək, neftdən qazanılan vəsaitləri indiki və gələcək nəsillər üçün qoruyub saxlamaq, artırmaq, hasilatda şəffaflıq prinsipini təmin etməkdən ibarətdir. Dövlət Neft Fondu həm də ölkənin neftdən qazandığı külli miqdarda gəlirin daxili iqtisadi mühitdə yarada biləcəyi neqativ proseslərin - manatın bahalaşmasının, inflyasiyanın qarşısını almağa, milli sənaye potensialının formalaşdırılması məqsədinə yönəlmişdir. Söhbət xarici valyutanın kütləvi surətdə ölkə iqtisadiyyatına daxil olması nəticəsində manatın bahalaşması təhlükəsindən gedir. İqtisadi təcrübə göstərir ki, manatın bahalaşması bilavasitə daxili istehsal prosesinə mane olan, yerli sənaye potensialının möhkəmlənməsinin qarşısını alan mənfi tendensiyadır. Belə olan təqdirdə istehsalla məşğul olmaq yerli iş adamlarına, sahibkarlara heç də cəlbedici olmur, xarici istehsalçılar isə bundan istifadə edərək öz mallarını həmin ölkəyə ixrac etməklə külli miqdarda gəlir əldə edirlər. Bu baxımdan daxili bazarın qorunması üçün gömrük siyasəti ilə yanaşı, makroiqtisadi siyasətin aparılmasına da ciddi ehtiyac duyulmuşdur. Dövlət Neft Fondunun yaradılması xarici valyutanın milli iqtisadiyyata mənfi təsirlərinin qarşısını almaq niyyətindən irəli gəlmişdir.

Ümummilli lider Heydər Əliyevin fərmanları ilə Dövlət Neft Fondundan ilk maliyyə vəsaiti Azərbaycanın ən ağrılı probleminin həlli - qaçqın və məcburi köçkünlərin mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması, çadır düşərgələrinin ləğvi məqsədilə ayrılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev bu siyasəti son illərdə inamla davam etdirərək neft sahəsində gəlirlərin idarə olunması, onlardan səmərəli istifadə, habelə şəffaflığın gözlənilməsi məsələlərinə daim ciddiliklə yanaşmışdır. Respublikamızın Böyük Britaniyanın sabiq Baş naziri Toni Blerin mədən hasilatı sənayelərində şəffaflıq təşəbbüsünə qoşulması bunu bir daha təsdiqləyir. Hələ 2002-ci il Cənubi Afrikanın Yohanezburq şəhərində keçirilən ümumdünya sammitində Böyük Britaniyanın Baş naziri Toni Bleyer mədən hasilatı sənayelərində şəffaflıq təşəbbüsünü elan etmiş və zəngin təbii sərvətlərə malik dövlətləri bu təşəbbüsə qoşulmağa çağırmışdır. 2003-cü ilin iyun ayında bu məsələ ilə əlaqədar London şəhərində təşkil olunmuş beynəlxalq konfransda o zaman ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir.



Şübşəsiz, Şəffaflıq Təşəbbüsü hesabatlılığın və düzgün idarəetmənin, iqtisadi və siyasi müstəqilliyin təmin olunmasında yardımçı amildir. Bu da öz növbəsində neft, mədən və qaz sektorları ilə bağlı mümkün münaqişələrin qarşısının alınmasını təmin edir. Şəffaf olmayan idarəetmənin yarada biləcəyi siyasi qeyri-sabitlik sərmayə yatırımlarına təhlükədir. Mədən sənayesində yatırılan sərmayələr uzunmüddətli sabitlikdən asılı olduğu üçün, onların gətirəcəyi qazanc baxımından qeyri-sabitliyin aradan qaldırılması mühüm amil hesab edilməlidir. Bu baxımdan, Şəffaflıq Təşəbbüsünün tətbiqi ictimaiyyət qarşısında yüksək şəffaflıq standartlarının təmin olunmasının nümayişi baxımından Azərbaycan hökuməti üçün vacib addımdır.

Dövlət başçısı İlham Əliyev hesab edir ki, Dövlət Neft Fondu fəaliyyətində bugünkü və gələcək nəsillərin mənafelərini əsas tutmalıdır. Ötən müddətdə Fonda daxil olan vəsaitlər ilbəil artmış, habelə bu vəsaitlərin müəyyən qisminin büdcə xərcləri çərçivəsində ünvanlı istifadəsi təmin edilmişdir. Cənab İlham Əliyevin «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 24 noyabr 2003-cü il tarixli fərmanı bu istiqamətdə atılmış ilk ciddi addım olmuşdur.

Neft Fondunda toplanmış gəlirlərdən səmərəli istifadə olunmasına dövlət tərəfindən göstərilən həssas münasibətin təzahürü kimi, Azərbaycan Prezidenti İlham Əliyevin 27 sentyabr 2004-cü il tarixli fərmanı ilə təsdiq edilmiş «Neft və qaz gəlirlərinin istifadə olunması üzrə uzunmüddətli strategiya»nın əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Bu strategiyada vəsaitlərin qeyri-neft sektorunda, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastruktur sahələrin genişmiqyaslı inkişafında, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsində, «insan kapitalı»nın formalaşmasında, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində və digər bu kimi istiqamətlərdə istifadə olunması nəzərdə tutulmuşdur.

Mədən hasilatında şəffaflıq təşəbbüsünün tətbiqində lider ölkəyə çevrilən Azərbaycan hələ 2006-cı il dekabrında Şəffaflıq Təşəbbüsünü dəstəkləyən qətnamə layihəsini BMT-nin Katibliyinə təqdim olunması təklifi ilə çıxış etmişdir. 2008-ci il fevralın 13-də isə belə bir layihə Azərbaycan hökuməti tərəfindən BMT-nin Katibliyinə təqdim olunmuşdur. Bu müddət ərzində qətnamə layihəsinin BMT Baş Assambleyasında qəbul edilməsi üçün mühüm işlər görülmüş, bir sıra dövlətlərin nümayəndələri ilə çoxsaylı görüşlər keçirilmişdir. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq Azərbaycan hökuməti tərəfindən təqdim edilmiş qətnamə layihəsi 2008-ci il sentyabrın 11-də BMT-nin Baş Assambleyasında yekdilliklə qəbul edilmişdir.

Şəffaf fəaliyyətinin nəticəsi olaraq 2007-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondu «Dövlət xidmətində şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması» üzrə «BMT-nin Dövlət Qulluğu Mükafatı»na layiq görülmüşdür. Dövlət Neft Fondu Şərqi Avropa və MDB ölkələrinin dövlət təşkilatları arasında «BMT-nin Dövlət Qulluğu Mükafatı»na layiq görülən birinci dövlət qurumudur və Azərbaycanı mükafat uğrunda mübarizədə Qərbi Asiya regionu çərçivəsində təmsil edir.

2009-cu ilin fevralında isə Qətərin paytaxtı Doha şəhərində MHŞT üzrə 4-cü beynəlxalq konfrans keçirilmişdir. Konfransda Azərbaycanda mədən hasilatı ilə məşğul olan şirkətlərin hökumətə ödənişləri və hökumətin şirkətlərdən daxilolmaları barədə məlumatların müntəzəm olaraq auditdən keçərək ictimaiyyətə açıqlandığı və dərc edildiyi xüsusi vurğulanmışdır. Azərbaycan MHŞT-ni tətbiq edən və namizəd statusu almış 26 ölkədən tamhüquqlu üzv statusunu almış ilk və yeganə ölkə olmuşdur. Konfransda Azərbaycana prinsip və meyarlarına tam cavab verən ölkə olması və MHŞT-nin tətbiqi sahəsində əldə etdiyi nailiyyətlərə görə «2009-cu il MHŞT mükafatı» təqdim edilmişdir.

Bütün bu nailiyyətlər Neft Fondunun nə dərəcə şəffaf və səmərəli fəaliyyət göstərdiyini bir daha göstərir. Eyni zamanda neftdən əldə olunan gəlirlərin düzgün idarə olunması nəticəsində son illər qeyri-neft sektorunun, sosial-mədəni infrastrukturun inkişafı mümkün olmuş, vətəndaşların maddi rifah halının yüksəlməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Azərbaycan qlobal maliyyə böhranından maksimum dərəcədə sığortalanması da, əslində, neft gəlirlərinin idarəolunmasında tətbiq olunmuş mexanizmlərin effektivliyini bir daha təsdiqləyir.

***S.Mustafayev***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən ayrılan maliyyə vəsaiti çərçivəsində çap olunub.**